# İNSAN HÜQUQLARININ HÜQUQİ TƏMİNETMƏ ÜSULLARI

**M.N.SƏMƏDOV**
***Bakı Dövlət Universiteti***
***samedov@mail.ru***

*Məqalədə ən əvvəl qeyd olunur ki, insan hüquqlarının təmin olunmasının səmərəliliyi çoxsaylı amillərdən asılıdır və bu zaman konstitusiya-hüquqi, inzibati-hüquqi, mülki-hüquqi, cinayət-hüquqi, beynəlxalq-hüquqi təminetmə üsulları tətbiq olunur. Bildirirlir ki, insan hüquq və azadlıqlarının təminatı institutunun əsas elementi qismində insan hüquq və azadlıqlarının konstitusiya təminatları çıxış edirlər.*

*Məqalədə qeyd olunur ki, insan hüquq və azadlıqlarının təminatının mülki-hüquqi üsulu inzibati-hüquqi üsulla müqayisədə olduqca mürəkkəbdir. Bununla yanaşı, vurğulanır ki, müasir şəraitdə insan hüquq və azadlıqlarının müdafiəsi üzrə beynəlxalq-hüquqi mexanizmlərin tətbiqi dövlətlərin daha sıx əməkdaşlığını tələb edir. Bu əməkdaşlıq insan hüquqlarının daha etibarlı təminatı üçün geniş imkanlar verir və bu hüquqların pozulmasının qarşısının alınmasına şərait yaradır.*

**Açar sözlər:** hüquq, insan, təminetmə, pozuntu, müdafiə, üsul, şikayət, məhkəmə, akt.

**https://doi.org/10.30546/209300.305.2025.3.016**

İnsan hüquq və azadlıqlarının təmin olunmasının səmərəliliyinə çoxsaylı amillər təsir göstərirlər. Bunlara hüquq və azadlıqlara edilən qəsdin növü və forması, pozuntuya məruz qalan hüquq və azadlıqların növləri, pozuntunu törədənin kimliyi (hüquqi şəxs, dövlət orqanı, fiziki şəxs), pozuntuya baxılma qaydası və s. aid edilə bilər. Konkret vəziyyəti və insan hüquq və azadlıqlarının pozulmasına səbəb olan və yaxud təsir göstərən amilləri rəhbər tutmaqla bu zaman konstitusiya-hüquqi, inzibati-hüquqi, mülki-hüquqi, cinayət-hüquqi, beynəlxalq-hüquqi təminetmə üsulları tətbiq olunur.

Fikrimizcə, insan hüquq və azadlıqlarının təminatı institutunun əsas elementi qismində insan hüquq və azadlıqlarının konstitusiya təminatları çıxış edirlər. İnsan hüquq və azadlıqlarının konstitusion müdafiə vasitələrinin dərindən öyrənilməsi zamanı bir sıra xüsusi əlamətlər fərqləndirilir:

- bu vasitələrin təyinatı həyat sahəsindən (siyasi, iqtisadi, sosial və s.) asılı olmayaraq bütün ictimai münasibətlərdə təşəkkül tapan insan hüquq və

azadlıqlarının müdafiəsidir;

- konstitusion müdafiə vasitələri digər hüquq sahələrinin müdafiə vasitələrinin tükəndiyi, lakin bu zaman pozulmuş hüququn bərpa olunmadığı halda tətbiq edilirlər;

- öz məzmunu etibarilə digər hüquq sahələrinin təsiri altında olmayan insanın hüquq və azadlıqlarını pozan qanunlara və ali dövlət hakimiyyəti orqanlarının aktlarına təsir göstərməkdə ifadə olunurlar;

- müdafiənin konstitusion vasitələrinin tətbiqinin əsasını müəyyənləşdirən normalar onların tətbiq olunduğu vətəndaşlara deyil, onları həyata keçirən orqanlara və vəzifəli şəxslərə ünvanlanırlar, çünki vətəndaşlar deyil, məhz bu orqanlar və vəzifəli şəxslər belə vasitələrin tətbiqinin qanunauyğunluğunun zəruri şərtlərinin mövcudluğunu, onların həyata keçirilmə vaxtı və qaydasını müəyyən edirlər.

Göstərilən əlamətlər hüquq tənzimetmə mexanizmindən və hüquqi müdafiə mexanizmindən, xüsusilə insan hüquq və azadlıqlarının konstitusion müdafiə vasitələrinə aid edilən müdafiə vasitələrini ayırmağa imkan verir.

İnsan hüquq və azadlıqlarının təminatının inzibati-hüquqi üsulu konstitusiya hüquqi normaları ilə və ona uyğun surətdə qəbul edilən, konkret idarəetmə sahələrində icra hakimiyyəti orqanlarının səlahiyyətlərini və həmin sferalarda hakimiyyət orqanlarının fərdlərlə qarşılıqlı münasibətlərini, müvafiq orqanların vəzifələrini və vəzifəli şəxslərin qeyri-hüquqi hərəkətlərindən vətəndaşların müdafiə formalarını müəyyən edən qanunlarla müəyyənləşdirilir [1, s. 378]. İnsan hüquqlarının müdafiəsinin inziabti-hüquqi formaları arasında aşağıdakıları qeyd etmək olar:

a) icra hakimiyyəti sahəsində olan normativ təminatlar;

b) hüquqi aktlardan şikayət vermənin inzibati (məhkəmədənkənar) qaydası;

c) icra hakimiyyəti sistemində dövlət nəzarətinin xüsusi formaları;

ç) qanunların riayət olunmasına prokuror nəzarəti [1, s. 379-380].

İnsan hüquq və azadlıqlarının təminatının inzibati-hüquqi üsulu xidməti, bərabər tabeli hüquq münasibətləri prosesində qanuni hüquqlardan, azadlıqlardan və maraqlardan istifadə etmək imkanının (əmək haqqının, mükafatın alınması, vəzifənin yüksəldilməsi, əlavə istirahət gününün, pulsuz yeni ixtisasın verilməsi, şəxsi işdə olan materiallar haqqında məlumatların əldə olunması və s.) təqdim edilməməsinə və yaxud onların qəsdən və ya ehtiyatsızlıqla pozulmasına yol verildiyi hallarda tətbiq olunur. Hər bir konkret halda zərərçəkən yaranan problemi hansı yolla həll etməyi müəyyənləşdirmək hüququna malikdir. İlkin olaraq inzibati-hüquqi üsulla getmək, sonra isə nəticələrdən asılı olaraq mülki-hüquqi, cinayət-hüquqi, konstitusion-hüquqi, hətta mümkünsə, beynəlxalq-hüquqi üsulla hərəkət etmək yalnız onun özündən asılıdır. Pozulmuş hüquq və azadlıqların müdafiəsi və bərpasının inzibati-hüquqi üsulu ən sadə və əlverişli üsuldur. O, xüsusi hüquqi biliklərin olmasını və

maddi məsrəflərin sərf olunmasını tələb etmir ki, bu da vətəndaşların müəyyən dairəsi üçün mühüm əhəmiyyət kəsb edir.

Hüquqların təminatının mülki-hüquqi üsulundan şəxsin əmlak hüquqları pozulduğu, ona maddi və ya mənəvi zərərin vurulduğu halda geniş istifadə olunur. Şəxsin əmlak hüquqlarının pozulmasının, ona mənəvi və maddi zərərin vurulmasının növləri və formaları olduqca müxtəlifdir, lakin bunlardan asılı olmayaraq müdafiənin mülki-hüquqi üsulunun tətbiqi qaydası dəyişikliyə məruz qalmır.

Əmlak hüquqlarının müdafiə üsulları dedikdə adətən qanunvericiklə nəzərdə tutulan və onların köməyi ilə hüququn pozulmasının qarşısının alınmasına, aradan qaldırılmasına, onun bərpasına və ya hüquqların pozulması nəticəsində itkilərin əvəzinin ödənilməsinə yönələn vasitələr başa düşülür. Bu cür müdafiə üsulları mülki hüququn subyektinə cari qanunvericilik tərəfindən verilir. Mülki dövriyyənin hər bir iştirakçısı üçün problem isə qeyd olunduğu kimi, qanunvericiliklə nəzərdə tutulmuş müdafiə vasitələrinin düzgün seçimindən, effektiv şəkildə istifadəsindən və tətbiqindən ibarətdir. Bu problemin həllinə əmlak hüquqların müdafiəsinin müxtəlif üsullarını tənzimləyən qanunvericiliyin müddəalarını dərindən öyrənmək, onların tətbiqində zəruri vərdişlərə yiyələnmək yolu ilə nail olmaq olar.

Mülki qanunvericilkdə əmlak hüquqların təminatının iki səviyyəsini fərqləndirmək olar. Birinci səviyyə universal xarakter daşıyan təminat üsullarının müəyyənləşdirilməsində ifadə olunur və bir qayda olaraq, istənilən subyektiv mülki hüququn müdafiəsi üçün istifadə oluna bilər. Onların sırasına hüququn tanınması; hüququn pozulmasına qədər mövcud olan vəziyyətin bərpası və hüququ pozan və ya onun pozulmasına təhlükə yaradan əməllərinin qarşısının alınması; mübahisəli əqdin etibarsız hesab olunması və onun etibarsız hesab olunmasının nəticələrinin tətbiqə yönəlməsi, dəyərsiz əqdin etibarsız hesab edilməsinin nəticələrinin tətbiqə yönəlməsi; dövlət orqanının və ya yerli özünüidarəetmə orqanının aktının etibarsız hesab edilməsi; hüququn özünümüdafiəsi; vəzifələrin icrasının naturada həyata keçirilməsinə məhkum edilmə; zərərin ödənilməsi; dəbbə pulunun tutlması; mənəvi zərərin əvəzinin ödənilməsi; hüquq münasibətlərinə xitam verilməsi və ya onların dəyişdirilməsi; dövlət orqanının qanunazidd olan aktının məhkəmə tərəfindən etibarsız hesab edilməsi daxildir. Bütün digər müdafiə üsulları müəyyən növ mülki hüquqlara xidmət etmək üçün nəzərdə tutulur və onların universal qaydada tətbiqi qeyri-münasibdir.

Mülki hüquqların universal müdafiə üsullarına gəldikdə isə onların da tətbiqetmə dairəsi məhdudlaşdırıla bilər. Lakin belə məhdudiyyətlər bu və ya digər müdafiə üsulunun tətbiqinin mümkünlüyünü istisna edən hüquq münasibətlərinin mahiyyətindən, müdafiə üsulunun özündən və ya mülki hüququn subyektindən asılı olaraq subyektiv mülki hüquqların ayrı-ayrı növlərinə

münasibətdə yol verilməzdir. Belə ki, mənəvi zərərin əvəzinin ödənilməsi kimi müdafiə üsulundan hüquqi şəxslərin mülki hüquqlarının müdafiəsi zamanı istifadə oluna bilməz.

Mülki hüquqların müdafiə üsullarının mülki-hüquqi tənzimlənməsinin ikinci səviyyəsi yalnız müəyyən növ mülki hüquqların müdafiəsi üçün və müəyyən pozuntulardan müdafiə üçün tətbiq edilən müdafiə üsullarının qanunla müəyyən edilməsini özündə ehtiva edir.

Mülki hüquqların təminatı üsullarını tətbiqetmə dairəsinə görə (ümumi və xüsusi); həyata keçirilmə metodlarına görə (iddia icraatı qaydasında, dövlət orqanlarına müraciət, müstəqil tətbiqetmə) və s. meyarlar üzrə təsnifatlandırmaq olar. Bununla belə, güman edirik ki, mülki hüquqların müdafiəsi üsullarının təsnifatı üçün praktiki baxımdan ən mühüm meyar onların tətbiqinin nəticəsidir, pozulmuş hüququn bərpası üçün onların tətbiqinin nəticələrinin xarakteridir. Göstərilən meyar eyni zamanda hüquqları pozulmuş subyekt tərəfindən onun müdafiəsinin mütənasib üsulunun seçimi üçün ən əsas meyarlardan biri qismində çıxış edə bilər. Onun praktiki əhəmiyyəti də məhz bunda özünü ifadə edir.

Beləliklə, əgər mülki hüquqların təminatı üsullarının təsnifatının əsasında onların tətbiqinin nəticəsi durursa, o zaman bütün universal üsulları aşağıdakı qruplara bölmək olar.

Binici qrup tətbiqinin müdafiə olunan hüququn təsdiqinə və yaxud vəzifənin xitamına (dəyişdirilməsinə) imkan verən üsulları özündə ehtiva edir. Belə bir nəticənin əldə olunmasına hüququn tanınması, vəzifələrin icrasının naturada həyata keçirilməsinə məhkum edilmə, dövlət orqanının və ya yerli özünüidarəetmə orqanının qanuna zidd olan aktının etibarsız hesab edilməsi, hüquq münasibətlərinə xitam verilməsi və ya onların dəyişdirilməsi kimi müdafiə usullarının tətbiqi gətirib çıxarır. Bütün sadalanan və ilk baxışdan tamamilə müxtəlif olan müdafiə üsullarını müdafiə olunan hüquq üçün onların tətbiqinin nəticələri birləşdirir. Müvafiq iddia ilə məhkəməyə müraciət edən şəxsin cavabdehdən bu vəzifənin icrasını tələb etmək hüququnun olmasının təsdiqidir. Dövlət orqanının və ya yerli özünüidarəetmə orqanının qanunazidd aktının etibarsız hesab olunması haqqında məhkəməyə müraciət edərkən hüququn subyekti, həmçinin bu hüququn təsdiqlənməsini xahiş edir, sübut etməyə çalışır ki, həmin hüququn qanunazidd aktla pozulması yolverizməzdir.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, hüquqların müdafiəsinin bütün sadalanan mülki-hüquqi üsulları subyektlər tərəfindən əsasən ilkin mərhələdə digər müdafiə üsullarının tətbiqi üçün əlverişli şəraitin yaradılması məqsədi ilə istifadə olunurlar. Belə hərəkətlərin zəruriliyi, bir qayda olaraq, müdafiə olunan hüquqa iddialı olan və ya onu mübahisələndirən digər şəxsin mövcud olduğu halda yaranır. Məsələn, mülkiyyət hüququnun tanınması haqqında tələb başqasının qeyri-qanuni sahibliyindən əmlakın tələb edilməsi və

ya mülkiyyət hüququnun realizəsində maneələrin aradan qaldırılması haqqında iddialardan və yaxud da tutulmuş yerdən (evdən, mənzildən, otaqdan) çıxarılma və ya onların boşaldılması haqqında iddiadan əvvəl irəli sürülür. Vəzifənin icrasının naturada həyata keçirilməsinə məhkum edilmə haqqında iddianın məhkəmə tərəfindən təmin olunmasından sonra əksər hallarda müvafiq vəzifənin yerinə yetirilməməsi və ya lazımi qaydada yerinə yetirilməməsi nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında iddia irəli sürülür.

Hüquqların müdafiəsinin mülki-hüquqi üsullarının ikinci qrupuna tətbiqinin hüquqların pozulmasının xəbərdarlığına və ya qarşısının alınmasına imkan verən üsullar aid edilirlər. Onların sırasına hüququ pozan və ya onun pozulmasına təhlükə yaradan əməllərinin qarşısının alınması, dövlət orqanı tərəfindən qəbul edilmiş aktın etibarsız hesab edilməsi, hüquqi özünümüdafiə tədbirləri, dəbbə pulunun tutulması və s. kimi üsulları aid etmək olar. Göstərilən müdafiə üsullarının tətbiqinin məqsədi hüquq subyektini qanunazidd hərəkətlərdən çəkindirmək və ya belə hərəkətlərin baş verməməsi üçün qabaqlayıcı addımlar atmaqdır.

Üçüncü qrup tədbirlər pozulmuş hüququn bərpası və/və ya hüquqların pozulması ilə əlaqədar yaranan itkilərin əvəzinin ödənilməsi məqsədini güdən hüquqların müdafiə üsullarını özündə ehtiva edir. Belə nəticə aşağıdakı yollarla nail oluna bilər: hüququn pozulmasınadək mövcud olan vəziyyətin bərpası; mübahisəli əqdin etibarsız hesab olunması və onun etibarsız hesab olunmasının nəticələrinin tətbiqə yönəlməsi, dəyərsiz əqdin etibarsız hesab edilməsinin nəticələrinin tətbiqə yönəlməsi; mənəvi zərərin əvəzinin ödənilməsi.

Mülki-hüquqi üsulla pozulmuş hüquqların və maraqların bərpası və ya müdafiəsi məhkəməyə iddia ərizəsinin verilməsi ilə həyata keçirilir. Ərizə müvafiq tələblərlə müşayiət olunmalıdır. Belə ki, hər hansı şəxsə fiziki və/və ya mənəvi iztirablar şəklində ifadə olunan, onun əmlak hüquqlarını pozan və ya ona məxsus olan digər qeyri-maddi nemətlərə qəsd edən hərəkətlərlə mənəvi zərər vurulduğu təqdirdə o, məhkəməyə ona vurulan zərərin ödənilməsi haqqında iddia ərizəsi ilə müraciət etmək hüququna malikdir. Mənəvi zərərin əvəzinin miqdarını müəyyənləşdirən zaman məhkəmə hüquq pozucusunun təqsirinin dərəcəsini, həmçinin diqqəti çəkən halları nəzərə almalıdır. Qeyd etmək vacibdir ki, hər bir konkret halda məhkəmə fiziki və ya mənəvi iztirabların dərəcəsini müəyyən edərkən zərərçəkənin fərdi xüsusiyyətlərindən (sağlamlıq vəziyyəti, ağrılara dözümsüzlüyü, həyəcanlanmaya, qıcıqlanmaya olan meylliliyi, əvvəllər keçirdiyi sarsıntılar və s.) çıxış etməlidir. Mənəvi zərər vətəndaşa onun şərəfini, ləyaqətini və ya işgüzar etibarını ləkələyən məlumatların yayılması vasitəsi ilə vurula bilər və bu halda da həmçinin itkilərin əvəzinin maddi şəkildə ödənilməsi tələbinin irəli sürülməsi hüququ yaranır.

Vurulmuş mənəvi zərərin əvəzinin ödənilməsi üçün əsaslar aşağıdakılardır: yüksək təhlükə mənbəyi tərəfindən vətəndaşın həyat və sağlamlığına

vurulmuş zərər; vətəndaşın qanunsuz olaraq cinayət məsuliyyətinə cəlb edilməsi, şəxs barəsində qeyri-qanuni ehtiyat tədbirlərinin tətbiqi, şəxsə onun ləyaqətini və işgüzar nüfuzunu ləkələyən məlumatların yayılması vasitəsi ilə vurulan zərər. Mənəvi zərərin əvəzinin miqdarı məhkəmə tərəfindən vətəndaşa vurulan fiziki və mənəvi iztirabların xarakterinin, zərər vuranın təqsirinin dərəcəsinin, həmçinin məntiq və ədalət tələblərinin nəzərə alınması vasitəsi ilə müəyyənləşdirilir. Təəssüflə qeyd etmək lazımdır ki, məntiq və ədalət anlayışları hər bir hakimin şəxsi dünyagörüşü ilə bağlı olan məsələdir və çox şey zərərçəkənin və yaxud təqsirli bilinənin təqdim etdiyi sübutların inandırıcılığı və əsaslılığından asılıdır. Buradan belə bir qənaətə gəlmək olar ki, zərərin əvəzinin miqdarının müəyyənləşdirilməsindən əvvəl fiziki və mənəvi iztirabların dərəcəsini daha obyektiv, daha inandırıcı şəkildə təqdim etmək haqqında təfərrüatı ilə düşünmək vacibdir.

Hər hansı bir şəkildə dövlət orqanlarının və yaxud da bu orqanların vəzifəli şəxslərinin qeyri-qanuni hərəkətləri və yaxud hərəkətsizliyi nəticəsində, həmçinin qeyri-hüquqi aktın verilməsi ilə vətəndaşa vurulmuş maddi zərər Azərbaycan Respublikasının hesabına ödənilir. Yuxarıda göstərilən hallar üzrə maddi ziyan müvafiq maliyyə orqanları tərəfindən ödənilir. Yüksək təhlükə mənbəyi tərəfindən maddi zərərin vurulduğu təqdirdə onun əvəzi həmin mənbənin sahibi tərəfindən ödənilir. Lakin sahibi özünün yüksək təhlükə mənbəyinin digər şəxslərin qeyri-hüquqi hərəkətləri nəticəsində idarəetmədən yayındığını sübut etdiyi hallarda dəyən zərərin əvəzinin ödənilməsindən azad olunur. Ödənilməli olan maddi zərərin həcminə zərərçəkənin qərəzli niyyəti, onun qeyri-adekvat hərəkətləri, həmçinin də yüksək təhlükə mənbəyinin sahibinin əmlak vəziyyəti təsir göstərir.

Şəxsin şikəst edilməsi və yaxud onun sağlamlığına zədə vurulması onun aldığı, yaxud malik ola biləcəyi itirilmiş əmək haqqının (gəlirin), həmçinin sağlamlığın zədələnməsi ilə ortaya çıxmış məsrəflərin, o cümlədən dərman preparatlarının, əlavə qidaların əldə olunmasına, protezləməyə, kənar qulluğa, sanatoriya müalicəsinə, xüsusi nəqliyyat vasitələrinin əldə edilməsinə, digər peşəyə hazırlığa və s. çəkilən məsrəflərin ona ödənilməsi zərurətini yaradır.

İtirilmiş əmək haqqının (gəlirin) həcminin müəyyənləşməsinə şikəstliklə və ya sağlamlığın digər şəkildə zədələnməsi ilə əlaqədar zərərçəkənə təyin olunmuş əlilliyə görə təqaüdlər, həmçinin sağlamlığa xəsarət yetirilməsindən həm əvvəl, həm də sonra təyin olunmuş digər təqaüdlər, müavinətlər, ödənişlər təsir göstərmirlər. Zərərçəkənin itirilmiş əmək haqqının (gəlirinin) tərkibinə həm əsas iş yeri üzrə, həm də əvəzçilik üzrə əmək və mülki-hüquqi müqavilələr əsasında onun əməyinin ödənilməsinin bütün növləri, müvəqqəti əmək qabiliyyətini itirmə, hamiləlik və doğum dövrü ödənilən müavinətlər, sahibkarlıq fəaliyyətindən irəli gələn gəlirlər və müəllif qonorarı daxildir. Əmək haqqının (gəlirin) bütün növləri vergilərin tutulmasına qədər hesablan-

mış miqdarda nəzərə alınır.

Diqqəti həm də bir məsələdə cəmləşdirmək vacibdir ki, vətəndaşlara zərərin vurulması onlara sonradan zərərin miqdarında dəyişiklik etmək hüququ verir. Bunun üçün əsaslar aşağıdakılardır: əmək qabiliyyətinin azalması və ya yüksəlməsi; təqsirkarın maddi vəziyyətinin yaxşılaşması yaxud pisləşməsi; həyat səviyyəsinin dəyərinin yüksəlməsi; minimal əmək haqqının miqdarının artması. Təəssüflə qeyd etmək lazımdır ki, sağlamlığa maddi ziyan əmtəələrin, iş və ya xidmətlərin çatışmaması vasitəsi ilə, həmçinin əmtəə (iş, xidmət) haqqında qeyri-mötəbər və ya qeyri-qənaətbəxş məlumatların verilməsi nəticəsində vurula bilər. Bu halda zərərin ödənilməsi zərərçəkənin seçimi üzrə satıcının və yaxud istehsalçının üzərinə qoyulur.

Beləliklə, insan hüquq və azadlıqlarının təminatının mülki-hüquqi üsulu inzibati-hüquqi üsulla müqayisədə olduqca mürəkkəbdir.

İnsan hüquq və azadlıqlarının təminatının daha bir üsulu cinayət-hüquqi üsuldur. O, insanın hüquq və azadlıqlarına zərər vurulması ilə nəticələnən cinayət əməllərinin (oğurluq, soyğunçuluq, quldurluq, bədən xəsarətləri və s.) törədilməsi hallarında istifadə olunur. Onun tətbiqinin metodikası xüsusi çətinliklərlə müşayiət olunmur. Müvafiq hüquq mühafizə orqanlarına müraciət ərizənin araşdırılmasını tələb edir. Xüsusi ittiham cinayətlərinin (məsələn, böhtan, təhqir) baxılması üçün başqa bir forma nəzərdə tutulmuşdur. Belə cinayətlər üzrə özlərini təhqir edilmiş və ya iftiraya məruz qalmış hesab etmək üçün əsaslara malik olan şəxslər birbaşa ərizə ilə məhkəməyə müraciət edirlər.

Hüquqların təminatının konstitusion-hüquqi üsulu o halda tətbiq olunur ki, müvafiq dövlət orqanlarına və məhkəmələrə bütün əvvəlki müraciətlər müvəffəqiyyətlə nəticələnmir. Konstitusiya Məhkəməsinə müraciət üçün əsas insanın konstitusion hüquqlarının pozulmasıdır. Müraciət etmək üçün şikayət ərizəsinin yazılması vacibdir. Belə ərizəyə əlavədə əvvəllər vətəndaşın müraciət etdiyi müxtəlif orqanlara verilmiş şikayət ərizələrinin surətləri, yaxud da həmin şikayətlər, ərizələr, müraciətlər üzrə qəbul edilmiş qərarların surətlərinin təqdim olunması zəruri hesab olunur.

Hazırkı dövrdə insan hüquqlarının təminatının beynəlxalq-hüquqi üsulu xüsusi əhəmiyyətə malikdir. Beynəlxalq təminatlar 1948-ci il Ümumdünya insan hüquqları Bəyannaməsində, 1966-cı il Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Paktda, 1950-ci il İnsanın əsas hüquqları və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında və s. mühüm sənədlərdə özünün təsbitini tapmışdır. Ümumi xarakterli təminatların realizəsi Azərbaycan Respublikası tərəfindən təmin olunur.

İnsan hüquqlarının təminatının ən geniş yayılmış üsulu kimi beynəlxalq prosedurlar çıxış edir. Onlar beynəlxalq müqavilə əsasında səlahiyyətli orqanların təsisi və fəaliyyəti ilə bağlıdır. Prosedurlar aşağıdakı formalarda həyata keçirilirlər: götürülmüş öhdəliklərin yerinə yetirilməsi haqqında döv-

lətlərin məruzələrinin baxılması; hüquqlarının pozulması ilə əlaqədar ayrı-ayrı şəxslərin, qrupların şikayətlərinin, müraciətlərinin baxılması; insan hüquqlarının pozulması ilə bağlı müəyyən halların öyrənilməsi və tədqiqi. Məsələn, məruzələrin təqdim olunması proseduru 1966-cı il Mülki və siyasi hüquqlar haqqında Paktda nəzərdə tutulmuşdur. Həmin Paktın 40-cı maddəsinə uyğun olaraq iştirakçı-dövlətlər Paktın realizəsi üzrə onların qəbul etdiyi tədbirlərlə bağlı, həmçinin Paktda müəyyən olunmuş hüquqların istifadəsində əldə olunmuş irəliləyişlər haqqında məruzələr təqdim edirlər.

Prosessual xarakterli beynəlxalq təminatlar müdafiə üçün İnsan hüquqları üzrə Avropa Məhkəməsinə (prosedur Avropa Şurası çərçivəsində mövcuddur) və İnsan hüquqları üzrə Beynəlxalq Şuraya (prosedur BMT çərçivəsində həyata keçirilir) müraciət etmək imkanını ehtiva edir.

Avropa Şurasının üzv-dövlətləri insan hüquqları və əsas azadlıqlarını daha yaxşı təmin etmək məqsədilə 1997-ci ildə Strasburqda yeni vəzifənin – İnsan hüquqları üzrə Avropa Şurasının Komissarı vəzifəsinin tətbiqinə başladılar. Bu vəzifəli şəxsin əsas vəzifələrinə Avropa Şurasına daxil olan dövlətlərdə insan hüquqları sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə yardım göstərilməsi, insan hüquqları üzrə milli müvəkkillərin fəaliyyətinə dəstək verilməsi və digər vəzəfələr daxildir. İnsan hüquqları üzrə Avropa Şurasının Komissarı insan hüquqlarının pozulması ilə bağlı şikayətləri baxılması üçün qəbul etmir. Birləşmiş Millətlər Təşkilatı da, həmçinin insan hüquqlarına hörmət göstərilməsinin inkişafı prinsipinin realizəsi məqsədi ilə İnsan hüquqları üzrə BMT-nin Ali Komissarı vəzifəsini təsis etmişdir ki, onun da vəzifələri bütün mülki, mədəni, iqtisadi, siyasi və sosial hüquqların təşkil edilməsi və müdafiəsindən ibarətdir. İnsan hüquqları üzrə Avropa Məhkəməsi yaradılmış və o, İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının üzv-dövlətlərindən şikayətləri qəbul edir və bu şikayətlərlə bağlı müvafiq qərarlar çıxarır, eləcə də digər təminatları həyata keçirir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 122.11-ci maddəsinə uyğun olaraq hər kəs insan hüquq və azadlıqlarının müdafiəsi üzrə Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hüquqi müdafiə vasitələri tükəndikdə, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə əsasən insan hüquq və azadlıqlarının müdafiəsi üzrə beynəlxalq məhkəmələrə müraciət etməyə haqlıdırlar [2]. Göstərilən maddənin məzmunundan göründüyü kimi müraciət Azərbaycan Respublikasının bütün məhkəmə instansiyalarında şəxsin müvafiq hüququnun müdafiəsindən imtina edildikdən sonra verilə bilər. Məsələn, şikayət Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta əsasən fəaliyyət göstərən İnsan hüquqları üzrə Komitəyə verilə bilər. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta dair birinci fakultativ Protokolun 2-ci maddəsinə uyğun olaraq, Paktda sadalanan hüquqlarından hansınınsa pozulduğunu və daxili hüquqi müdafiə vasitələrinin tü-

kəndiyini iddia edən şəxslər, həmin Protokolun 1-ci maddənin müddəalarına riayət etmək şərti ilə, baxılmaq üçün Komitəyə yazılı məlumat təqdim edə bilərlər [3]. Komitə şikayətlərin anonim olmadığı və şikayət hüququndan sui-istifadəyə yol verilmədiyi hallarda onları qəbul edir. Şikayət ərizəsini aldıqdan sonra Komitə həmin məsələnin digər beynəlxalq araşdırma proseduruna müvafiq surətdə baxılmadığını və həmin hüquqla bağlı milli qanunvericiliklə nəzərdə tutulan bütün mümkün müdafiə vasitələrindən istifadənin tükəndiyini yoxlayır.

Beynəlxalq hüquqi sənədlər insan hüquqları üzrə razılaşmaların real şəkildə həyata keçirilməsinə yardım göstərilməsinin müxtəlif tərəflərini nəzərdə tuturlar. İnsan hüquqları sahəsində məlumatların əldə olunma mənbələri və həyata keçirilmə metodları üzrə beynəlxalq prosedurlar müxtəlif qruplara bölünür və aşağıdakıları ehtiva edirlər: insan hüquqlarının təminatı sahəsində özlərinin öhdəliklərinin yerinə yetirilməsi haqqında dövlətlərin məruzələrinin nəzərdən kerilməsi; müvafiq öhdəliklərin pozulmasına görə dövlətlərin bir-birinə qarşı irəli sürdüyü iddialara baxılması; təxmin edilən və ya artıq müəyyən olunmuş insan hüquqları pozuntuları ilə bağlı vəziyyətlərin öyrənilməsi və tədqiqi; insan hüquqlarının pozuntularında təqsirli bilinən şəxslər haqqıda məlumatları əks etdirən xüsusi siyahıların tərtib olunması; fərdi cinayət məsuliyyəti haqqında məsələnin qaldırılması; hüquqların, azadlıqların və maraqların pozulması problemləri üzrə ayrı-ayrı şəxslərin, qrupların və ya qeyri-hökumət təşkilatlarının şikayətlərinə baxılması.

Azərbaycan Respublikasının Avropa Şurasına daxil olması və bu səbəbdən də, onun beynəlxalq hüquqi müdafiə mexanizmlərinə qoşulması ilə əlaqədar İnsan hüquqları və əsas azadlıqlarının Avropa Konvensiyasının prosedurları xüsusi aktuallıq kəsb edir. Həmin Konvensiya özünün müddəalarının yeriən yetirilməsi üzərində nəzarətin iki formasını nəzərdə tutur: məruzələrin baxılması və fərdi bildirişlərin araşdırılması.

1950-ci il 4 noyabr tarixli "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanın 34-cü maddəsinə uyğun olaraq Avropa Məhkəməsi "Razılığa gələn Yüksək Tərəflərdən birinin onun bu Konvensiyanın və ya ona dair Protokolların müddəaları ilə nəzərdə tutulmuş hüquqların pozmasının qurbanı" [4] olduğunu təsdiq edən istənilən fiziki və ya hüquqi şəxsdən, hər hansı qeyri-hökumət təşkilatından və ya xüsusi şəxslər qrupundan şikayət ərizələrini qəbul edə bilər. "Yüksək Saziş bağlamış Tərəflər həmin hüququn effektiv şəkildə həyata keçirilməsinə heç bir vəchlə mane olmamağı öz öhdələrinə götürürlər" [4]. Fərdi şikayətin verilməsi qaydasında ərizəçi Konvensiyada nəzərdə tutulan və şikayətdə qeyd edilən bu və ya digər hüququn pozulmasının qurbanı qismində şəxsən özü çıxış etməlidir. Bu, mütləq şərt hesab olunur. Konvensiya ümumilikdə insan hüquqlarının pozulması ilə əlaqədar şikayət vermək hüququnu nəzərdə tutmur: şikayətin təmin

olunması üçün ərizəçi müvafiq pozuntunun nəticəsində özünün şəxsən zərər çəkdiyini əsaslandırmalıdır. Beləliklə, Avropa Məhkəməsi milli qanunvericiliyin Konvensiyaya uyğunluğu haqqında məsələyə baxmır. Ərizəçinin həmin Konvensiya ilə təminat verilən hüquqların pozulmasının qurbanı olması şərti Avropa Məhkəməsində işin araşdırılmasının və baxışının davam etdiyi bütün dövrdə gözlənilməlidir. Məsələn, iş üzrə Məhkəmədə dinləmələrin aparılması zamanı fövqəladə tədbirlərin tətbiqi ilə əlaqədar ərizəçinin dövlətdaxili hakimiyyət orqanlardan zərərin əvəzinin və ya digər əvəzli ödənişlərin alması öz təsdiqini taparsa, Məhkəmə həmin şəxsin Konvensiyanın 34-cü maddəsində müvafiq ifadəyə verilən məna anlamında hüquq pozuntusu qurbanının hesab edilməməsi barədə qərar çıxara bilər.

Həmçinin qeyd etmək lazımdır ki, Avropa Məhkəməsinin Nizamnaməsinə əsasən fərd özünün dinləmələrdə şəxsən iştirak etmək istəyi ilə bağlı müraciət edə bilər. Məhkəmədə onun maraqlarını, bir qayda olaraq, həmin mübahisə üzrə Komissiyada şikayətin baxılması mərhələsində artıq iştirak etmiş vəkil təmsil edir.

Beləliklə, insan hüquqlarının beynəlxalq-hüquqi müdafiə mexanizmi kifayət qədər mürəkkəb bir sistemdir. Bununla əlaqədar beynəlxalq qurumlara ünvanlanan müraciətlərin böyük əksəriyyəti aiddiyyət meyarına uyğun olmaması baxımından məqbul sayılmırlar.

Müasir şəraitdə insan hüquq və azadlıqlarının müdafiəsi üzrə beynəlxalq-hüquqi mexanizmlərin tətbiqi dövlətlərin daha sıx əməkdaşlığını tələb edir. Belə əməkdaşlıq insan hüquqlarının daha etibarlı təminatı üçün geniş imkanlar verir, habelə bu hüquqların pozulmasının qarşısının alınmasına şərait yaradır. Bununla belə, hal-hazırda obyektiv səbəblərdən insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi buna ehtiyacı olan insanların çoxu üçün imkan xaricində olan bir institutdur.

İnsan hüquqlarının müdafiəsi sahəsində olan beynəlxalq-hüquqi prosedurların təhlili bunların mövcudluğunun zəruriliyini bir daha təsdiqləyir. Belə ki, istənilən dövlətin vətəndaşları aidiyyəti beynəlxalq qurumlara müraciət edərkən beynəlxalq hüquq normalarının bütün aspektlərində (maddi, prosessual, mülki-hüquqi) tətbiqi nöqteyi-nəzərindən məlumat almağa, məsləhətə və praktiki yardıma həddindən artıq ehtiyac duyurlar.

İnsan və vətəndaş hüquqlarının dövlət müdafiəsi hər kəsin qanunla qadağan olunmayan bütün üsullardan müstəqil və fəal şəkildə istifadəsini istisna etmir [5, s. 528]. Öz hüquq və azadlıqlarını müdafiə edərkən şəxs vətəndaş cəmiyyətinin institutlarından faydalanmaq, xüsusilə kütləvi informasiya vasitələrinə, siyasi partiyalara və digər ictimai birliklərə müraciət etmək hüququna malikdir. Öz hüquqlarından istifadə etməklə insan piketlərdə iştirak edə, özünün müdafiəsi üçün mitinqlər, nümayişlər və ya yazılı müraciətlər formasında kütləvi aksiyaların keçirilməsi haqqında xahişlə ictimaiyyətə müraciət edə bilər.

Bununla belə, hüquq və azadlıqların müdafiə hüququ özündə həm idraki üsulları, həm də qanunla icazə verilən fiziki üsulları ehtiva edir. Sonunculara özünümüdafiə hüququ və ya da Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 36-cı və 38-ci maddələrində ifadə olunan "zəruri müdafiə" və "son zərurət" aiddir.

Zəruri müdafiə zorakı qəsdlərin qarşısının alınmasına yönəlmişdir, ona görə ki, cinayət törətmək niyyətində olan şəxs bilir ki, zərərçəkən tərəfindən fəal müqavimətlə qarşılaşa bilər və qanun bu müqaviməti, həm də onun nəticəsində hücum edənə xəsarətin yetirilməsini hüquqauyğun hərəkət kimi qiymətləndirir [6, s. 354].

Cinayət qanunu ilə mühafizə olunan maraqlara son zərurət vəziyyətində, yəni şəxsin özünün və ya başqa şəxslərin şəxsiyyətini və hüquqlarını, dövlətin və cəmiyyətin qanunla qorunan maraqlarını bilavasitə qorxu altına alan təhlükəni aradan qaldırmaq üçün zərərin vurulması, əgər həmin təhlükənin digər vasitələrlə aradan qaldırılması mümkün deyildirsə və bu zaman Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 38-ci maddəsinə uyğun surətdə son zərurət həddinin aşılmasına yol verilməmişdirsə [7], cinayət hesab olunmur.

Müasir dövrdə Azərbaycan Respublikasında öz hüquqlarının müdafiəsi və özünümüdafiə məqsədi ilə şəxs tərəfindən istifadə olunan silahların növləri haqqında məsələlər də qanunvericilik qaydasında tənzimlənmişdir. Belə ki, "Xidməti və mülki silahlar haqqında" 30 dekabr 1997-ci il tarixli Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinə uyğun olaraq bir sıra şəxsi və əmlak hüquqlarının müdafiəsi üçün silah tətbiq edilə bilər. Vətəndaşlar tərəfindən silah zəruri müdafiə və ya son zərurət vəziyyətində həyat və sağlamlığın, əmlakın və ya mənzil toxunulmazlığının cinayətkar qəsdlərdən qorunması üçün tətbiq oluna bilər [8]. Silahın tətbiqi yalnız real təhlükə yarandığı zaman mümkündür və üçüncü şəxslərə zərər yetirməməlidir. Eyni zamanda silahın tətbiqinin yönəldiyi şəxsə bu barədə xəbərdarlıq edildikdən sonra bu addımın atılması mümkün hesab edilir. Bu zaman insanların toplaşdığı yerlərdə və üçüncü şəxslərə zərər yetirilə bilən yerlərdə, yanında azyaşlı uşaqların olduğu şəxslərə, qadınlara, açıq-aydın şikəstlik əlamətləri bilinən şəxslərə, yaşı aydın görünən və ya əvvəlcədən məlum olan uşaqlara qarşı silah tətbiq edilməsi qadağan olunur. Lakin həmin qadağa göstərilən şəxslərin silahlı və dəstə halında hücumlarda iştirak etdiyi hallara şamil olunmur.

Məhkəməyə müraciətsiz yol verilən özünümüdafiə zamanı tətbiq edilən üsullar pozuntuya mütənasib olmalı və onun aradan qaldırılması üçün zəruri olan hərəkətlərin çərçivəsindən kənara çıxmamalıdır. Bu isə o deməkdir ki, özünümüdafiə üç şərtin olduğu təqdirində mümkündür: hüququn pozulması, onun qarşısının alınmasının vacibliyi və tətbiq edilən cavab tədbirlərinin pozuntunun səviyyəsinə mütənasibliyi. Belə özünümüdafiəyə nümunə

olaraq öhdəliklərin yerinə yetirilməsinin təmini məqsədi ilə borclu tərəfindən onun icrası anınadək əşyanın saxlanılmasını göstərmək olar.

Yuxarıda sadalanan müddəaların əsasında, fikrimizcə, özünümüdafiənin aşağıdakı əlamətlərini ayırmaq olar:

1) özünümüdafiə hüququnun yalnız səlahiyyəti çatan, maraqlı şəxsə, yəni müvafiq hüquq və vəzifələrə malik olan şəxsə verilməsi;

2) əməllərin birtərəfli xarakteri, çünki dövlət hakimiyyəti səlahiyyətlərinə malik olan strukturlara müraciət nəzərdə tutulmur;

3) tətbiq üçün əsas kimi həm hüquqların, azadlıqların, qanuni maraqların pozulması, həm də onların pozulması üçün yaranan təhlükə çıxış edə bilər;

4) özünümudafiə yalnız maraqlı şəxsin fəal davranışını əks etdirən hərəkətlər qismində deyil, həm də hərəkətsizliklə, yəni şəxsin passiv davranışı ilə həyata keçirilə bilər;

5) özünümüdafiə dövlət tərəfindən hüdudları müəyyənləşdirilən müəyyən çərçivələrdə reallaşdırılmalıdır, əks təqdirdə o özbaşınalığa çevrilə bilər.

Beləliklə, özünümüdafiə dedikdə pozulmuş hüququn bərpası və ya onun pozulması təhlükəsinin aradan qaldırılması üçün qanunla müəyyən edilmiş hüdudlarda səlahiyyəti olan şəxsin hərəkətləri (hərəkətsizliyi) başa düşülür.

Özünümüdafiə zamanı maraqlı şəxs müdafiənin aşağıdakı üsullarından istifadə edə bilər: dövlət orqanlarına müraciət; kütləvi (ictimai) tədbirlərdə iştirak; kütləvi informasiya vasitələrinə, qeyri-hökumət təşkilatlara müraciət; vəzifəli şəxslərin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət etmək; zəruri müdafiə və son zərurət vəziyyətlərində hərəkətlərin edilməsi.

## ƏDƏBİYYAT


1. Права человека: Учебник / Отв. ред. Е.А.Лукашева. - Москва: Норма, - 2001, - 573 с.
2. “Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının 1976-cı il 23 mart tarixli “Mülki və siyasi hüquqlar haqqında” Beynəlxalq Paktına dair birinci Fakultativ Protokola qoşulması haqqında” Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli Qanunu// Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - 2001, - № 9, maddə 578.
3. Azərbaycan Respublikasının 2000-ci il 14 iyul tarixli Cinayət-Prosessual Məcəlləsi // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - 2000, - № 8, Kitab 2, maddə 585.
4. “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” 4 noyabr 1950-ci il tarixli Konvensiya // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - 2002, - № 3, maddə 113.
5. Quliyev C.Y. Azərbaycan Respublikasında insan hüquqlarının təmin edilməsinin konstitusiya təminatları // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 17-ci buraxılış, - Bakı: Adiloğlu, - 2007, - s. 523-529.
6. Комментарий к Конституции Российской Федерации / Под ред. Л.А.Окунькова. - Москва: Юристъ, - 2002, - 1002 с.
7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi// Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - 2000, - № 4, II kitab, maddə 251.
8. “Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikasının 30 dekabr 1997-ci il tarixli Qanunu//Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - 1998, - № 3, maddə 137.

## ПРАВОВОВЫЕ СПОСОБЫ ОБЕСПЕЧЕНИЯ ПРАВ ЧЕЛОВЕКА

**М.Н.САМЕДОВ**

**РЕЗЮМЕ**

В статье прежде всего отмечается, что эффективность обеспечения прав человека зависит от множества факторов и в этом случае применяются конституционно-правовые, административно-правовые, гражданско-правовые, уголовно-правовые, международно-правовые методы обеспечения. Отмечается, что конституционные гарантии прав и свобод человека выступают основным элементом института обеспечения прав и свобод человека.

В статье также отмечается, что гражданско-правовой метод обеспечения прав и свобод человека является достаточно сложным по сравнению с административно-правовым методом. Кроме того, подчеркивается, что в современных условиях применение международно-правовых механизмов защиты прав и свобод человека требует более тесного сотрудничества государств. Это сотрудничество предоставляет широкие возможности для более надежного обеспечения прав человека и создает условия для предотвращения их нарушения.

**Ключевые слова:** право, человек, гарантия, нарушение, защита, способ, жалоба, суд, акт.

## LEGAL METHODS FOR ENSURING HUMAN RIGHTS

**M.N.SAMADOV**

**SUMMARY**

The article primarily notes that the effectiveness of ensuring human rights depends on many factors, and in this case, constitutional, administrative, civil, criminal, and international legal methods are applied. It is noted that constitutional guarantees of human rights and freedoms are the fundamental element of the institution of ensuring human rights and freedoms.

The article also notes that the civil law method of ensuring human rights and freedoms is quite complex compared to the administrative law method. Furthermore, it is emphasized that in modern conditions, the application of international legal mechanisms for the protection of human rights and freedoms requires closer cooperation between states. This cooperation provides ample opportunities for more reliable protection of human rights and creates the conditions for preventing their violation.

**Keywords:** law, human, guarantee, violation, protection, method, complaint, court, act.